

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ *qapısı*

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 21 (23.663)

*2 fevral 2021-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Fevralın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Abşeron rayonunda yenidən qurulan 220/110/10 kilovoltluq və yeni tikilən 110/35/10 kilovoltluq "Xırdalan" yarımstansiyalarının, həmçinin paytaxtın Yasamal rayonunda yeni salınan meşə tipli parkın, Abşeron Rayon Mərkəzi Xəstəxanasının yeni inşa edilən binasının açılışında iştirak ediblər. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xırdalan şəhərində 3 saylı məktəb-liseydə yaradılan şəraitlə tanış olublar.

Dövlətimizin başçısı və birinci xanım ulu öndər Heydər Əliyevin Xırdalan şəhərindəki abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyublar.



Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 yanvar tarixli Sərəncamı ilə Azərbaycanda gömrük orqanlarında səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşları təltif edilmişlər. Təltif edilənlər arasında Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşları da vardır.

**Babayev Hümbət Hümbət oğlu**

**Əliyev Ramin Akif oğlu**

**Fərzəliyev Qalib Mahmud oğlu**

"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmişlər.

## İran İslam Respublikasının Xarici İşlər naziri Naxçıvan Muxtar Respublikasında səfərdə olub

Yanvarın 30-da İran İslam Respublikasının Xarici İşlər naziri Məhəmməd Cavad Zərif və rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasında səfərdə olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İranın Xarici İşlər naziri Məhəmməd Cavad Zəriflə görüşmüşdür.

Ali Məclisin Sədri qonağı Naxçıvanda görməkdən məmnunluğunu bildirmiş və muxtar respublikaya səfərinin əhəmiyyətini vurğulamışdır.

Məhəmməd Cavad Zərif göstərilən səmimi münasibətə görə minnətdarlıq edərək demişdir: "İran İslam Respublikası Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası ilə əlaqələrə mühüm əhəmiyyət verir. Sevinirəm ki, Azərbaycana budəfəki səfərimi Naxçıvan Muxtar Respublikasında başa çatdırıram. İran İslam Respublikası Qarabağın işğaldan azad olunmasına çox şaddır. Səfərimin məqsədi region ölkələri arasında sülhün bərqərar olunması və yeni əməkdaşlıq imkanları ilə bağlı müzakirələr aparmaqdır. Ümid edirik ki, yaxın gələcəkdə bölgədə çoxtərəfli əməkdaşlığın təşkilinə nail olunacaq. Bu mənada, Naxçıvan Muxtar Respublikasının regionun birləşməsində çox mühüm əhəmiyyəti vardır".



Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasındakı əlaqələrdən danışan Ali Məclisin Sədri bildirmişdir ki, Ermənistanın işğalçılıq siyasətinə son qoyulması bölgə üçün geniş imkanlar açır. Naxçıvan isə bölgənin logistik mərkəzidir. Regional əməkdaşlığa 30 il bundan əvvəl də başlamaq olardı. Lakin Ermənistanın uzun illər həyata keçirdiyi işğalçılıq siyasəti bölgənin inkişafına böyük maneçilik törətdi.

Söhbət zamanı qarşılıqlı maraqdoğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

İran İslam Respublikasının Azərbaycan Respublikasındakı səfiri Seyid Abbas Musəvi və Naxçıvandakı Baş konsulu Seyid Əhməd Hüseyni görüşdə iştirak etmişlər.

## Səfərlə bağlı mətbuat bəyanatı olub





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun İran İslam Respublikasının Xarici İşlər naziri Məhəmməd Cavad Zəriflə görüşündən sonra mətbuata bəyanatla çıxış olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: "İran İslam Respublikasının Xarici İşlər nazirinin Naxçıvana səfəri bölgə dövlətlərinin birgə əməkdaşlığının təşkili ilə bağlıdır. Bölgə dövlətlərini əhatə edən səfər Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında başa çatır. Ermənistanın işğalçılıq siyasətinə son verilməndən sonra bölgə dövlətləri arasında əməkdaşlığın yaradılması səfərin əsas müzakirə mövzusu olmuşdur. Təşəbbüsə və səfərə görə İran İslam Respublikasının Xarici İşlər nazirinə minnətdarlıq edirik. Əminik ki, bu səfərin nəticələri uğurlu olacaqdır. Təbii ki, bu da bölgə dövlətlərinin birgə fəaliyyətindən asılıdır".

İran İslam Respublikasının Xarici İşlər naziri Məhəmməd Cavad Zərif demişdir: "Mən çox şadam ki, regional səfərimi Bakıdan başlayıb Naxçıvanda bitirirəm. Naxçıvan Muxtar Respublikası gələcəkdə Qafqazda yaranacaq sülh əməkdaşlığı üçün mərkəz rolunu oynayacaqdır. Elə etməliyik ki, müharibənin acı nəticələri bir daha yaşanmasın. Buna da bir-birimizlə faydalı əməkdaşlıq etməklə nail olmaq mümkündür. Bu əməkdaşlıqda və kommunikasiya yollarının birləşməsində Naxçıvan Muxtar Respublikasının çox böyük əhəmiyyəti vardır. Beş ölkədə səfərdə olduğum zaman aparılan danışıqların nəticəsi olaraq əminəm ki, istər şimal-cənub, istərsə də cənub-qərb dəhlizləri olmaqla, gələcəkdə yaxşı əməkdaşlıq edə, telekommunikasiyalar quraraq əməkdaşlığımızı daha yüksək səviyyəyə çatdıra bilərik. Bunun nəticəsində də Fars Körfəzini Rusiyaya və Qara dənizə birləşdirə bilərik. Bütün bu dəhlizlərin işə salınmasında Naxçıvan Muxtar Respublikasının böyük əhəmiyyəti olacaqdır".

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# İran İslam Respublikası ilə əlaqələr genişlənir



*Xəbər verdiyimiz kimi, yanvarın 30-da İran İslam Respublikasının Xarici İşlər naziri Cavad Zərif Naxçıvan Muxtar Respublikasına rəsmi səfərə gəlib. Səfər proqramı çərçivəsində qonaq Naxçıvan şəhərində yerləşən “Qala” Məscid Kompleksində olub.*

Burada qonağa məlumat verilib ki, muxtar respublikada dini-mənəvi dəyərlərə böyük ehtiramla yanaşılır, tarixi və dini abidələr bərpa olunur, yeni məscidlər tikilir. Milli memarlıq üslubunda inşa olunan “Qala” Məscid Kompleksi də bu istiqamətdə görülən işlərin davamıdır. 2000 nəfərin ibadət edə biləcəyi kompleksdə qız və oğlanlar üçün mədrəsələr, kitabxana, kəbin otağı və sair nəzərdə tutulub.

Həmin gün Culfa rayonuna səfər edən İran İslam Respublikasının Xarici İşlər naziri Culfa Dəmiryol Stansiyasının inzibati binası ilə tanış olub. Məlumat verilib ki, bir əsrdən çox yaşı olan Culfa Dəmiryol Stansiyası son illərdə yenidən qurulub, burada müasir infrastruktur yaradılıb. Həmçinin Culfa Dəmiryol Stansiyasının Azərbaycan, Rusiya və İran İslam Respublikası ilə əlaqələrdə əhəmiyyətindən bəhs olunub. Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında qarşılıqlı əməkdaşlıq 2016-cı ildən Naxçıvan-Məşhəd-Naxçıvan beynəlxalq sərnişin qatarının fəaliyyətə başlaması ilə nəticələnib.

Sonra qonaq Araz çayı üzərindən keçən Culfa-Culfa dəmiryol xəttinə baxıb, Culfa Gömrük İdarəsinin və İran İslam Respublikasının Culfa gömrük sərhəd-keçid məntəqəsinin fəaliyyəti ilə tanış olub.

Həmin gün İran İslam Respublikasının Xarici İşlər naziri Cavad Zərifin Naxçıvan Muxtar Respublikasına səfəri başa çatıb.

✍ **Səbuhi HƏSƏNOV**

# Muxtar respublika gənclərinə dövlət qayğısı onların hərtərəfli inkişafına xidmət edir

***1997-ci il fevralın 1-də ulu öndər Heydər Əliyevin Sərəncamı ilə Gənclərin birinci Forumunun keçirildiyi gün – fevralın 2-si Azərbaycanda Gənclər Günü elan edilmişdir.***

***“Biz yaratdığımız, qurduğumuz müstəqil Azərbaycan dövlətini gənclərə tapşırırıq. Bizim işimizi gənclər davam etdirməlidir”.*** Ümummilli liderimiz Heydər Əliyevin bu fikirləri Azərbaycan gəncliyinə göstərilən etimadın təzahürüdür. Ulu öndər ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə sağlamdüşüncəli gənc nəslin yetişdirilməsini, gənclərin ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini diqqət mərkəzində saxlamışdır. Dahi rəhbərin təşəbbüsü ilə hələ sovetlər birliyi dövründə Azərbaycan gəncliyinin inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, milli dəyərlərə və tarixi-mədəni irsə bağlı gənc nəslin formalaşdırılmasının əsası qoyulmuşdur. O dövrdə gənclərin təhsili sahəsində həyata keçirilən tədbirlər, onların ixtisaslı kadr kimi yetişdirilməsi, xüsusilə milli hərbçi kadrların hazırlanması ölkəmiz müstəqillik qazandıqdan sonra milli kadr təminatında əsas amil olmuşdur.

Ümummilli liderimiz müstəqillik dövründə – 1993-2003-cü illərdə ölkəmizə rəhbərliyi zamanı da gənclərlə bağlı dövlət siyasətinin əsas prinsiplərini müəyyənləşdirmiş, gənclərin ölkənin sosial-iqtisadi, ictimai-siyasi həyatında fəal iştirakının təmin olunması, onların sosial problemlərinin həlli və gələcəyin layiqli vətəndaşları kimi formalaşması üçün lazımi şərait yaratmışdır. Ulu öndərin rəhbərliyi ilə ölkəmizdə “Gənclər siyasəti haqqında”, “Bədən tərbiyəsi və idman haqqında”, “Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında” qanunlar qəbul olunmuş, bir sıra fərman və sərəncamlar imzalanmışdır. Bütün bunlar da gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşması, sosial problemlərinin həlli və məşğulluqlarının təmin olunması baxımından mühüm əhəmiyyətə malik olmuşdur.

Dövlətin mövcudluğunun təməl prinsiplərindən biri də məhz sağlam gənclikdir. Dövlət müstəqilliyinin möhkəmləndirilməsi, gələcəyin təminatı intellektual gənclərin yetişdirilməsindən asılıdır. Gəncliyin sağlam ruhlu, savadlı, yüksək tərbiyəyə malik olması çox önəmlidir.

Gənclər hər bir dövlətin milli varlığı, dünənindən miras qalan sərvəti, bu günündə güc mənbəyi, sabahında ümid yeri və gələcəyinə doğru yönəlmiş yolda isə mövcudluğun sübutudur. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir. Bu gün böyük iftixarla demək olar ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi qoruyub yaşadır. O öz həyatını qurarkən ilk öncə müstəqil Azərbaycanın bu günü və gələcəyi haqqında düşünür, öz fəaliyyətində yüksək vətəndaşlıq hisslərinə, Vətən sevgisinə malik olduğunu nümayiş etdirir. Geridə qoyduğumuz 2020-ci ildə biz bu vətənpərvərliyin ən bariz nümunəsinin şahidi olduq. Belə ki, sentyabrın 27-dən başlayaraq Azərbaycan Ordusunun həyata keçirdiyi əks-hücum əməliyyatları nəticəsində 30 ilə yaxın işğal altında olan ərazilərimizin böyük, həm də strateji əhəmiyyətli hissələri Ali Baş Komandanımızın qətiyyəti, siyasi iradəsi, Azərbaycan əsgərinin, Azərbaycan gənclərinin gücü, düşmənə qarşı birgə mübarizəsi sayəsində azad olundu.

Bu gün dövlətin apardığı gənclər siyasəti keyfiyyətcə yeni mərhələdə davam etdirilir.



Ölkə Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi dövlət gənclər siyasəti nəticəsində gənclərimiz cəmiyyətimizin inkişafında fəal sosial təbəqəyə çevrilmişdir. Son illər bu sahədə görülən işlərin, həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri öz intellektual səviyyələri, bilik və bacarıqları ilə nəinki regionda, ümumiyyətlə, dünyada tanınır və qəbul olunurlar.

Muxtar respublikamızda da gənclərin sağlam, vətənpərvər ruhda böyüməsi, yüksək səviyyədə təhsil alması, onların cəmiyyətin müxtəlif sahələrində fəal iştirakının təmin etmək üçün ardıcıl tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Bu gün bizim qarşımızda bir vəzifə durur: mənəviyyatca təmiz, intellektli və vətənpərvər gənclər yetişdirmək. Gənclərin bir yolu var. Bu yol ölkə Prezidenti tərəfindən uğurla davam etdirilən Heydər Əliyev yoludur. Hər bir gənc yaradılan yüksək şəraitdən və göstərilən dövlət qayğısından bəhrələnərək Vətəni və xalqı üçün layiqli vətəndaş olmağa çalışmalı, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməli və ona göstərilən etimadı doğrultmalıdır”.***

Muxtar respublikamızda gənclərin yüksək səviyyədə təhsil alması, intellektual səviyyəsinin yüksəldilməsi, dünyagörüşünün formalaşması və asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə tədbirlər görülür. Naxçıvanda gənclərin fəaliyyəti üçün yaradılan geniş imkanlar bu təbəqəni cəmiyyətin avanqard qüvvəsinə çevirib. Dövlətin diqqət və qayğısı sayəsində gənclər təşkilatlarının dövlət gənclər siyasətində iştirakını təmin edən hüquqları genişləndirilib, “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramına uyğun olaraq muxtar respublikada gənclər siyasəti daha səmərəli həyata keçirilir, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakı təmin edilir. Eyni zamanda gənc nəslin sağlamlığının qorunmasına, gənclərin təhsil və məşğulluq məsələlərinə diqqət gündən-günə daha da artırılır, müasir informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə edilir, muxtar respublikada elektron kitabxanalar, mədəniyyət evləri, ali təhsil müəssisələrində yeni tədris korpusları, yeni orta məktəb binaları, idman mərkəzləri və digər saymaqla bitməyən obyektlər tikilir və ya əsaslı təmir olunaraq gənclərin istifadəsinə verilir.

Gəncliyə qayğı gələcəyə qayğıdır. Ona görə də gənclərlə iş sahəsində həyata keçirilən tədbirlərin əsasını gənclərin ictimai-siyasi, iqtisadi və mədəni həyatda fəal iştirakı, sosial problemlərinin həlli, bu sahədə müvafiq Dövlət proqramlarının qəbul olunması, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə irəli çəkilməsi və onların xidmətlərinin qiymətləndirilməsi kimi mühüm tədbirlər təşkil edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında” 2012-ci il 31 yanvar tarixli Fərmanına əsasən Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının “Qızıl kitabı”nın təsis edilməsi gənclərə göstərilən diqqət və qayğının məntiqi davamıdır. Müxtəlif sahələrdə fərqlənən istedadlı gənclərin qabiliyyətlərinin qiymətləndirilməsi, onların fəxri adlarla, qiymətli hədiyyələrlə mükafatlandırılması muxtar respublika gənclərinin öz üzərlərində daha səylə çalışmalarına güclü təkan verir. “Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu” publik hüquqi şəxsin yaradılması isə muxtar respublikada gənclərə göstərilən diqqət və qayğının daha bir nümunəsi olmuşdur. Qurumun məqsədi muxtar respublikada gənclərlə bağlı dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində, gənclər siyasəti sahəsində normativ-hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək, gənclərin müxtəlif sahələrlə bağlı innovativ ideyalarını dəstəkləmək, eyni zamanda onların təşəbbüskarlığının stimullaşdırılması və artırılması istiqamətində tədbirlər görməkdir. Muxtar respublikada gənclərlə bağlı həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu gün gənclərimiz dövlət orqanlarında, parlamentdə, bələdiyyələrdə, biznes strukturlarında, digər təşkilatlarda təmsil olunurlar və cəmiyyətin inkişafına öz töhfələrini vermək imkanına malikdirlər.

Muxtar respublikada ali və orta ixtisas məktəblərindəki ixtisaslar müvafiq dövlət orqanlarının hamiliyindədir ki, bu da gənclərin peşəkar kadr kimi yetişməsinə öz töhfəsini verir. Muxtar respublikada gənclərin təhsili ilə yanaşı, onların işlə təminatı da əsas məsələlər sırasındadır. İstər dövlət idarəçiliyində, istərsə də ictimai və təsərrüfat fəaliyyətinin digər sahələrində gənclərə böyük etimad göstərilir. Ölkəmizin inkişafında, müstəqil dövlətimizin möhkəmlənməsində və müdafiəsində gənc kadrların potensialından geniş istifadə olunur.

İdman və bədən tərbiyəsi gənc nəslin fiziki inkişafında və sağlam böyüməsində mühüm rol oynayır. Bu amil nəzərə alınaraq muxtar respublikada idmanın kütləviliyinə xüsusi diqqət yetirilir. Son illər muxtar respublikanın şəhər və rayonlarında olimpiya idman komplekslərinin, idman mərkəzlərinin, uşaq-gənclər idman və şahmat məktəblərinin, orta məktəblərdə idman zallarının və açıq idman qurğularının istifadəyə verilməsi gənclərin hərtərəfli böyüməsinə xidmət edir. Yaradılan imkanlardan istifadə edən gənclər Azərbaycan və dünya miqyaslı yarışlarda və çempionatlarda uğurla iştirak edərək Naxçıvanın adını yüksəldirlər.

Muxtar respublikada həyata keçirilən dövlət gənclər siyasətinin mühüm istiqamətlərindən birini də gənclərin sosial problemlərinin həlli, xüsusilə də mənzil şəraitinin yaxşılaşdırılması təşkil edir. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarının yeni yaşayış kompleksləri tikilərək istifadəyə verilmiş, gənclərin güzəştli şərtlərlə mənzil sahibi olmaları üçün tədbirlər görülmüşdür.

Bu gün gənclərin sosial şəbəkələrdə fəallığı da artmışdır. “Naxçıvan həqiqətləri”, “Naxçıvan gəncləri”, “Naxçıvan xəbərləri” və “Xaricdə təhsil alan naxçıvanlı gənclər” sosial şəbəkə qrupları gənclər Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırır, muxtar respublikanın turizm potensialını tanıdırlar.

Sevindirici haldır ki, bu gün muxtar respublika gəncləri yaradılmış imkanlardan faydalanaraq həm öz inkişafları, həm də dövlətin inkişafı yolunda həyata keçirilən tədbirlərdə aktivlik nümayiş etdirirlər.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

*Yanvarın 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının kollektivi və Ali Məclisin Naxçıvanşünaslıq Mərkəzinin əməkdaşları Heydər Əliyev Muzeyində olublar. Görkəmli dövlət xadiminin keçdiyi şərəfli həyat yolunu özündə əks etdirən nadir tarixi eksponatlarla tanışlıq muzey ziyarətçilərində böyük maraq doğurub.*

# Muzeylər ziyarət olunub



Muzeyin direktoru Ramil Orucəliyev mədəniyyət müəssisəsi barədə ətraflı məlumat verərək bildirib ki, Heydər Əliyev Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il fevralın 18-də imzaladığı Sərəncamla yaradılıb və həmin il may ayının 10-da fəaliyyətə başlayıb.

Vurğulanıb ki, 420 eksponatla fəaliyyətə başlayan muzeyin fondunda hazırda 4621 eksponat vardır ki, onun da 3000-dən çoxu kitabxana və ekspozisiyada nümayiş etdirilir. Dəyərli eksponatlar onu seyr edən hər kəsin qəlbində dərin iz buraxır, yüksək təəssürat yaradır. Dahi şəxsiyyətin şərəfli ömür yolu hər bir Azərbaycan vətəndaşı, o cümlədən gənc nəsil üçün əsl həyat məktəbidir. Xalqımızın müqəddəs ziyarətgahına çevrilmiş muzey ulu öndərimizin dövlətçilik, Azərbaycançılıq, vətənpərvərlik ideyalarını təbliğ edərək gəncləri dahi öndər Heydər Əliyev kimi xalqa, Vətənə və dövlətə sədaqətli olmağa çağırır. Burada nümayiş etdirilən eksponatların hər biri ayrı-ayrılıqda elmi-tədqiqat mövzusudur.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin əməkdaşları Naxçıvan Dövlət Tarix Muzeyini, Ali Məhkəmənin, Naxçıvan Şəhər Məhkəməsinin və ixtisaslaşdırılmış məhkəmələrin kollektivləri Ədəbiyyat Muzeyini, Daxili İşlər Nazirliyinin əməkdaşları Dövlət Bayrağı Muzeyini, Dövlət Təhlükəsizliyi Xidmətinin kollektivi “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksini, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Hərbi Prokurorluğun və Naxçıvan Şəhər Prokurorluğunun əməkdaşları Naxçıvan Dövlət Xalça Muzeyini, Ədliyyə Nazirliyi və Penitensiar Xidməti Aparatının kollektivləri “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksini, Fövqəladə Hallar Nazirliyi və struktur qurumlarının əməkdaşları Cəmşid Naxçıvanski Muzeyini, Dövlət Gömrük Komitəsinin kollektivi Bəhruz Kəngərli Muzeyini, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının əməkdaşları Xatirə Muzeyini, Maliyyə Nazirliyinin kollektivi Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksini, İqtisadiyyat Nazirliyinin əməkdaşları Cəlil Məmmədquluzadənin ev-muzeyini ziyarət ediblər.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və struktur qurumlarının əməkdaşları Naxçıvan Dövlət Rəsm Qalereyasında, Kənd Təsərrüfatı Nazirliyinin, “Naxçıvan Aqroservis” Açıq Səhmdar Cəmiyyətinin kollektivləri Nəbatat bağında, Rabitə və Yeni Texnologiyalar Nazirliyi və struktur qurumlarının əməkdaşları Duz Muzeyində, Səhiyyə Nazirliyinin kollektivi Milli Dəyərlər Muzeyində, Təhsil Nazirliyinin əməkdaşları Yusif Küseyir oğlu türbəsində, Mədəniyyət Nazirliyinin kollektivi Qarabağlar Türbə Kompleksində, Gənclər və İdman Nazirliyinin əməkdaşları Naxçıvan Biznes Mərkəzində, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollektivi “Əlincəqala” Tarix-Mədəniyyət Muzey Kompleksi və Gülüstan türbəsində olublar.

Qeyd edək ki, yanvarın 30-da muxtar respublikanın şəhər və rayon icra hakimiyyətlərinin, eləcə də mərkəzi icra hakimiyyəti orqanlarının şəhər və rayonlardakı idarə, müəssisə və təşkilatlarının əməkdaşları da muzeyləri ziyarət ediblər.

✍ **Nail ƏSGƏROV**

# Naxçıvan Qarnizonu Qoşunlarında müşavirə keçirilib

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən Naxçıvan Qarnizonu Qoşunlarında 2020-ci tədris ilinin nəticələri ilə bağlı yekun müşavirə keçirilib.***

2021-ci yeni tədris ilinə hazırlıq planına uyğun olaraq Naxçıvan Qarnizonu Qoşunlarında müxtəlif ixtisaslar üzrə toplantılar keçirilib. Toplantılar başa çatdıqdan sonra 2020-ci tədris ilinin nəticələri ilə bağlı yekun müşavirə keçirilib. Əvvəlcə Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi yad olunub və ordu quruculuğundan bəhs edən "Zəfər ili – 2020" adlı film nümayiş etdirilib.

Naxçıvan Qarnizonunun rəisi, general-polkovnik Kərəm Mustafayev 2020-ci tədris ilində qoşunlarda həyata keçirilmiş tədbirləri təhlil edərək bildirib ki, ümummilli liderimiz Heydər Əliyevin ordumuzun döyüş və peşəkarlıq səviyyəsinin artırılması sahəsində müəyyənləşdirdiyi vəzifələr bu gün Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.



Azərbaycan Silahlı Qüvvələrinin tərkib hissəsi olan Naxçıvan Qarnizonu Qoşunları Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə müasir silah və texnikalarla təmin edilib və yüksək döyüş qabiliyyətinə malikdir. Ötən il ərzində Naxçıvan Qarnizonu Qoşunlarında hərbi infrastrukturun yenilənməsi istiqamətində keçirilən tədbirlərin diqqətdə saxlanılması, Türkiyə Silahlı Qüvvələrinin bölmələri ilə birlikdə Naxçıvanda keçirilmiş "Sarsılmaz qardaşlıq – 2020" birgə taktiki təlimində yüksək hərbi peşəkarlıq nümayiş etdirilməsi muxtar respublikamızda ordu quruculuğu sahəsində görülən işlərin məntiqi davamıdır.

Vurğulanıb ki, 27 sentyabrda Azərbaycan Ordusunun əks-hücum əməliyyatına başlaması ilə Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hissələri Naxçıvan Muxtar Respublikasının müdafiəsini, ərazi bütövlüyünü və toxunulmazlığını təmin etmək üçün tam döyüşə hazırolma vəziyyətinə gətirildi.

Qarabağ istiqamətində şiddətli döyüşlər davam edərkən Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları döyüş fəaliyyətlərinə və xüsusi döyüş tapşırıqlarının yerinə yetirilməsinə cəlb edildi. Müharibə dövründə xüsusi təyinatlı bölmələrimiz döyüş tapşırıqlarını uğurla yerinə yetirərək işğal edilmiş şəhər, qəsəbə və kəndlərimizin, həmçinin vacib yüksəkliklərin azad edilməsində xüsusi şücaət göstərdilər. Azərbaycanımızın bütövlüyü və Vətənimizin müdafiəsi uğrunda gedən döyüşlərdə Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçularından yaralanan və şəhidlik zirvəsinə ucalanlar da oldu. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun şəhidlərə, qazilərə və onların ailə üzvlərinə göstərdiyi diqqət və qayğı hər birimizə bariz nümunədir.

Tədbirdə "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının komandiri, general-leytenant Niyaməddin Tağıyev, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar nazirinin müavini, general-mayor Hikmət Kərimov, Hərbi Məhkəmənin sədri Polad Həsənov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, polkovnik Mirzə Cəlilov, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının komandiri, general-mayor Səlim Niftəliyev, Dövlət Təhlükəsizliyi Xidmətinin İdarə rəisi, polkovnik Ramin Əhmədov, Hərbi Prokurorluğun şöbə rəisi, ədliyyə mayoru Bəhruz Məmmədov çıxış ediblər.

Tədbir iştirakçılarına "Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı" haqqında ətraflı məlumat verilib.

**Nəriman NƏCƏFOV**

---

# Nailiyyətlərlə dolu inamlı yolun yolçuları...

***Muxtar respublikamızın müasir gəncliyi çox xoşbəxtdir ki, qarşılarında onları nailiyyətlərlə dolu gələcəyə aparacaq geniş üfüqlər açılıb. Təsadüfi deyil ki, müxtəlif sahələrdə öz bacarıq və qabiliyyətini sınayan onlarla gəncin uğurları barədə hər ötən gün eşidir və görürük. Biz də "Şərq qapısı" qəzeti əməkdaşları olaraq gənclərimizin nailiyyətlərinə onlar qədər sevinir və tez-tez bu barədə oxucularımıza da ətraflı məlumat veririk. Budəfəki yazımızda da məhz muxtar respublikanın ictimai, mədəni, sosial həyatında fəallığ göstərən, həmyaşıdları arasında fərqlənən, seçilən gənclərdən bir neçəsi haqqında söhbət açacağıq...***



***Mirtağı Rəhimov*** 1991-ci ildə Bakı şəhərində dünyaya göz açıb. 2006-2009-cu illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə, 2009-2013-cü illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub, 2013-2014-cü illərdə isə Silahlı Qüvvələrin Təlim Tədris Mərkəzində dinləyici olub. 2014-cü ildən Naxçıvandakı Xüsusi Təyinatlı Hərbi Hissəyə könüllü müraciət edib. Həmin ildən Əlahiddə Ümumqoşun Ordunun kəşfiyyatçısı kimi fəaliyyət göstərir. Mirtağının dediklərindən: – Peşəkar hərbçi kimi yetişməyimizə yaradılan hərtərəfli şərait, göstərilən dövlət qayğısı mübarizə ruhumuza da müsbət təsir etdi, gələcək uğurlu əməliyyatlara hazırladı bizi. 2018-ci ildə tarixi əhəmiyyət kəsb edən Günnüt əməliyyatında mən də iştirak etdim. Həmin əməliyyatdan sonra isə ən böyük arzumuz gerçəkləşdi. Qürur duyuram ki, bir hərbçi kimi mən də qələbə tariximizin bir parçası, zəfər ilinin iştirakçısı oldum. Əlahiddə Ümumqoşun Ordunun hərbçisi kimi muxtar respublikada ordu quruculuğuna, hərbçilərimizə göstərilən diqqət və qayğıya cavab olaraq generallar yurdu qədim diyarımızın hərbi şərəfini yüksək tutmağa çalışdım.

Oktyabr ayının 11-də Naxçıvandan müharibə bölgəsinə ilk gedənlər arasında mən də vardım. Oktyabrın 17-si Ərgünəş dağının sol silsiləsində 40 dəqiqəyə yaxın ağır döyüş əməliyyatı keçirildi. Həmin gün şəhidlər verdik, yaralılarımız da çox oldu. İki dəfə ölümü lap yaxından hiss etdim. Üçüncü dəfə isə üzərimizə yağan minaatan mərmilərindən çoxumuz xəsarət aldıq. Mən də ayağımdan yaralandım. Təcrübəli həkimlərimizin sayəsində sağlamlığıma qovuşdum. Sevindirici haldır ki, həkimlərimiz, sadə vətəndaşlar mütəşəkkil şəkildə döyüşçülərə kömək edir, könüllü xidmət göstərirdilər. Yekun olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlığımı bildirmək istəyirəm. Dövlət başçımız istər müharibə zamanı, istərsə də müharibədən sonra siyasi qətiyyəti ilə hər kəsin könlündə taxt qurdu. Hər bir Vətən oğlunun şücaətini yüksək qiymətləndirdi. Mən də "Vətən müharibəsi iştirakçısı", "Döyüşdə fərqlənməyə görə", "Şücaətə görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edildim. Ötən ilin sonunda Naxçıvan Muxtar Respublikasında Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə keçirilən tədbirdə "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda göstərdiyi şücaətə görə Vətən müharibəsi iştirakçısı" nominasiyasının qalibi oldum. Vətənin müdafiəsi, dövlət müstəqilliyimizin qorunması naminə bundan sonra da, həyatım bahasına olsa belə, ən ağır mübarizələrin önündə getməyə hazıram.



***Özləm Bayramova*** 2001-ci il oktyabrın 17-də Naxçıvan şəhərində anadan olub. Naxçıvan Qızlar Liseyində oxuyub. Liseydə təhsil aldığı müddətdə voleybol yarışlarında, tarix fənni üzrə olimpiadalarda iştirak edərək uğurlar qazanıb. 2019-cu ildə Naxçıvan Dövlət Universitetinin Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisasına qəbul olub. Hazırda II kursda təhsil alır. O deyir: – Naxçıvanda gənclərin fəaliyyəti, inkişafı üçün hər cür şərait mövcuddur. Mən də bundan səmərəli istifadə edərək öz üzərimdə daim çalışıram. Universitetə qəbul olduğum ilk aydan fakültəmizin Tələbə-Gənclər Təşkilatının sədr müavini seçilmişəm. Bu müddət ərzində əksər tədbirlərdə – Beynəlxalq Gənclər Həftəsinə həsr olunmuş universitet üzrə "Xəmsə" milli intellektual oyununda komandamla birgə, həmçinin dəyirmi masalarda, kitab müzakirələrində, voleybol yarışlarında yaxından iştirak etmişəm. Naxçıvan Dövlət Universitetinin tələbələri arasında keçirilən "Onlayn intellektual müsabiqənin" təşkilatçısı, "Qarabağa qayıtdıq!" adlı dəyirmi masanın ideya müəllifi, "Əsgərə məktub" layihəsinin iştirakçısı olmuşam. 2019-cu ilin oktyabr ayından etibarən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyində könüllülük fəaliyyətinə başlamışam. O vaxtdan nazirlik tərəfindən həyata keçirilən tədbirlərdə və layihələrdə yaxından iştirak edirəm. Naxçıvanlı şəhidlərimizi ictimaiyyətə tanıdan "Qəhrəmanlar unudulmur" layihəsinin həyata keçirilməsində fəallıq göstərməyə çalışıram. Nazirlik tərəfindən start verilən "Könüllü jurnalist" layihəsindən uğurla keçərək "könüllü jurnalist" seçilmişəm. Azərbaycanın Dövlət Bayrağının Naxçıvan Muxtar Respublikasında qaldırıldığı gün münasibətilə təşkil olunmuş "Bayraq mənliyimdir" adlı tədbirdə, oxunması zəruri olan kitabların müzakirələrində iştirak etmişəm. "Xəmsə", "Nə? Harada? Nə zaman?" kimi intellektual oyunlarda təşkilatçı kimi fəaliyyət göstərmişəm. "Mütaliədən qalma" aksiyasının iştirakçısı və dəfələrlə qalibi olmuşam. Ötən il Naxçıvan Muxtar Respublikasının ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən istedadlı yeniyetmə və gənclərin mükafatlandırılması mərasimində "İlin fəal gənci" nominasiyası üzrə təltif edilmişəm. "İlin fəal gənci" seçilməklə yanaşı, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən keçirilən tədbirlərdə könüllü olaraq iştirakıma görə dəfələrlə diploma layiq görülmüşəm.

Bu il isə universitet daxilində ən böyük uğurum fakültə üzrə Tələbə-Gənclər Təşkilatının sədri seçilməyim, həmçinin Naxçıvan Dövlət Universitetinin Tələbə-Gənclər Təşkilatı sədrinin ümumi işlər üzrə müavini təyin edilməyim olub. İndi ən böyük arzum bakalavr təhsilimi fərqlənmə diplomu ilə başa vurub, Hüquqşünaslıq ixtisası üzrə ikinci təhsil almaqdır. Gələcəkdə doğma diyarımızda hüquqşünas kimi fəaliyyət göstərmək, insanlara, cəmiyyətə hüquqi dövlət quruculuğu istiqamətində fayda vermək istəyirəm.

Muxtar respublikamızda gənc olmağına baxmayaraq, həzin, qəlboxşayan səsi ilə könüllərə yol tapan musiqiçilər də az deyil. Onlardan biri də hazırda Naxçıvan Musiqi Kollecinin Vokal ixtisası üzrə II kursunda təhsil alan ***Elvin İsmayılov***dur. 2004-cü il fevralın 14-də Ordubad şəhərində dünyaya göz açan bu gəncimizdə ailə üzvləri tərəfindən hələ kiçik yaşlarından musiqiyə həvəs, maraq yaradılır. Orta məktəbin 6-cı sinfində oxuyarkən musiqi dərsindəki ifası müəllimində Elvinin gələcəyi barədə müsbət fikirlər oyadır və ona sənədlərini musiqi məktəbinə verməyi, təhsilini bu yöndə davam etdirməyi məsləhət görür. Beləliklə, o özünün maraq və istəyi, müəlliminin məsləhəti ilə 2015-ci ildə Ordubad Şəhər Uşaq Musiqi Məktəbində Vokal ixtisası üzrə orta təhsil almağa başlayır. Məktəb illərində ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 93, 94 və 95-ci illəri ilə bağlı muxtar respublikada təşkil olunan tədbirlərdə, müsabiqələrdə iştirak edir, özünəməxsus səsi ilə qəlblərə yol tapır, iki dəfə birinci, bir dəfə isə ikinci yeri tutur. 2017-ci ildə Tofiq Quliyevin əsərlərindən ibarət muxtar respublika müsabiqəsində II dərəcəli diploma layiq görülən gənc müğənni 2018-2019-cu tədris ilində incəsənət sahəsində qazandığı nailiyyətlərə görə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən Fəxri fərmanla təltif edilir. 2020-ci ilin yekunlarına görə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu tərəfindən "İlin gənc müğənnisi" nominasiyası üzrə qalib elan olunan Elvin İsmayılov deyir ki, vokal sənətinə yiyələnməyimdə, qazandığı uğurlarda müəllimi Sahab İsmayılovanın əməyi danılmazdır. Repertuarında görkəmli Azərbaycan bəstəkarı Tofiq Quliyevin mahnılarına üstünlük verən gənc müğənni xalq mahnılarına, təsniflərə də tez-tez müraciət edir, daha böyük səhnələrə yol tapmaq üçün klassik mədəni irsimizin öyrənilməsini vacib sayır.



Muxtar respublikamızda musiqi mədəniyyətimizin inkişafından, gənclərin bu sahədə bacarıqlarını ortaya çıxarması üçün yaradılan şəraitdən ağızdolusu danışan Elvin günümüzün aktual məsələlərindən sayılan musiqi zövqü barədə də fikirlərini dilə gətirir: – Yəqin çoxları mənimlə razılaşar ki, bütün sahələrdə olduğu kimi, musiqidə də təbliğat həlledici rol oynayır. Günümüzdə həyatımızın ayrılmaz parçasına çevrilən televiziya kanalları, sosial şəbəkələr də məhz bu baxımdan olduqca diqqətçəkicidir. Qədim diyarımızın televiziya və radio kanallarında, eləcə də ilin müxtəlif dövrlərində əlamətdar günlərlə əlaqədar keçirilən tədbirlərdə, festivallarda musiqi mədəniyyətimizin yüksək səviyyədə təbliği təqdirəlayiqdir. Lakin eyni fikirləri sosial şəbəkələrdə tez-tez qarşılaşdığımız gərəksiz musiqilər, heç bir mahiyyət kəsb etməyən mahnılar barədə söyləmək mümkün deyil. Təəssüf doğuran hallardan biri də bəzi gənclərin belə bayağı musiqilərə böyük maraq göstərməsidir ki, bu, musiqi zövqünün gələcəyi barədə heç də yaxşı nəticələr vəd etmir. Fürsətdən istifadə edib bütün gənc dinləyicilərə üzümü tutub deyirəm ki, gəlin milliliyimizi yaşadan, mənəvi-əxlaqi keyfiyyətlər aşılayan mahnılara, musiqilərə qulaq asaq ki, zövqümüz düzgün şəkildə formalaşsın. Elə mən də bir sənət adamı kimi dövlət qayğısından bəhrələnərək gələcək fəaliyyətimi milli dəyərlərimizin, incəsənətimizin təbliğinə həsr edəcəyəm.



***Nazlı Hümbətova (şahmatçı):*** – Fərqli düşünmə, uzaqgörənlik, təhlilətmə qabiliyyəti, kreativlik və həyatın anlamını başa düşmək kimi üstün keyfiyyətlər aşılayan şahmat bu gün muxtar respublika gənclərinin sevimli idman növünə çevrilib. Bu sahənin inkişafına müntəzəm göstərilən diqqət və qayğı sayəsində son illərdə çox sayda zəka sahibi yetişib. Onlardan biri də Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının yetirməsi Nazlı Hümbətovadır. 2007-ci il oktyabrın 15-də Naxçıvan şəhərində dünyaya göz açan Nazlı kiçik yaşlarından şahmata böyük maraq göstərib. Bu idman növünün sirlərinə dərindən yiyələnmək üçün 6 yaşında Naxçıvan Şahmat Mərkəzinə üz tutub və burada Hüseyn müəllimdən dərs alıb. Qısa zaman ərzində həmyaşıdları içərisində öz xüsusi istedadı ilə seçilən Nazlı muxtar respublika, ölkə və beynəlxalq səviyyəli bir sıra şahmat turnirlərində uğurlu çıxışları ilə yaddaşlarda iz qoyub.

2020-ci ildə pandemiya ilə əlaqədar yarışlarda iştirak edə bilməyən zəka sahibi onlayn turnirlərdə bir çox nəticəyə imza atıb. O həmçinin ötən il 24 yanvar – 2 fevral tarixlərində Ağcabədi rayonunda keçirilən şahmat üzrə Azərbaycan birinciliyinin seçmə yarışlarında 14 yaşlı qızlar arasında ikinci yer tutub.

Naxçıvan şəhəri 5 nömrəli tam orta məktəbin şagirdi olan Nazlı Hümbətovanın fikirlərini dinləyək: "Düşüncə qabiliyyətimin artırılmasında böyük rol oynayan, daim yeniliklərə dolu olan şahmata həvəsim hələ uşaq yaşlarından yaranıb. Televiziya kanallarında bu idman növü üzrə hazırlanan verilişləri, ölkəmizi dünya səviyyəsində layiqincə təmsil edən şahmatçılarımızı heyranlıqla izləyir, evimizdə ara-sıra anamla şahmat oynayırdım. Bu minvalla Naxçıvan Şahmat Mərkəzinə üz tutub qısa zaman çərçivəsində şahmatın sirlərinə dərindən yiyələnməyə başladım, ilk vaxtlarda bir sıra yarışlarda zəkamı sınadım. Zaman ötdükcə kiçik uğurlarımdan stimul alaraq böyük nailiyyətlərə doğru irəlilədim. Sevinirəm ki, ötən illər ərzində qədim diyarımızda şahmatın inkişafı üçün yaradılan şəraitdən bəhrələnərək xeyli uğur qazanaraq gələcəyimə böyük ümidlər bəsləyən müəllim və valideynlərimin etimadını doğrulda bilmişəm. Kubok, medal və digər mükafatlarım gələcəyə nikbin baxmağa, daha səylə çalışmağa sövq edir. Oyun üslubumu necə seçməyimi, hansı gedişlərdə düzgün addım atmağımı isə yarışdan-yarışa daha da təkmilləşdirirəm. Ötən ilin yekunlarına əsasən keçirilən tədbirdə "İlin ən yaxşı gənc idmançısı" seçilməyim isə mənə əlavə stimul verdi. Dövlətimin dəstəyi sayəsində yeni-yeni uğurlar qazanacağıma inamım böyükdür. Biz gənc idmançılara yaradılan imkanlara görə minnətdaram".

*Göründüyü kimi, muxtar respublikamızda gənclərin hərtərəfli inkişafı naminə atılan addımlar, görülən işlər öz bəhrəsini verməklə neçə-neçə bacarıqlı, qabiliyyətli, sağlamdüşüncəli, istedadlı gəncin qarşısında geniş üfüqlər açaraq onları xoşbəxt sabahlara doğru inamla aparır. Günü-gündən artan uğurlar, nailiyyətlər barədə hələ bundan sonra da yazılacaq, deyiləcək sözlər çox olacaq...*

**✍ Nail ƏSGƏROV**
**✍ Ceyhun MƏMMƏDOV**
**✍ Türkan HÜSEYNLİ**
**✍ Güntac ŞAHMƏMMƏDLİ**

***Türk xalqlarında mövcud olan qədim mifoloji düşüncəyə görə, qış xalqın təqviminə əsasən dövrlərə – çillələrə bölünür. Çillə əziyyətdən, məşəqqətdən, zülmdən çıxmaq mənasındadır. Bizim müasir dilimizdə "çillədən çıxmaq" ifadəsi var. Əgər bir adam günlərlə evdən çıxmasa, zarafatla onun haqqında deyərlər ki, filankəs çilə çıxarır. Amma bu zarafatın arxasında böyük bir inam var. Xalq belə təsəvvür edir ki, qış təbiətin məşəqqətli bir zamanıdır. Bu zamandan aciz insanın çıxması son dərəcə çətindir. O qışdan çıxmaq insanın, doğrudan da, bayram etməsinə əsas verən bir keçid dövrüdür. O mənada, Böyük çillə, Kiçik çillə, Boz ay mərhələləri Novruz bayramına qədərki çox vacib mərhələlərdir.***

*Xalq təqvimi*

## Milli etnosun mərasim düşüncəsində Kiçik çillə



Məlum olduğu kimi, Böyük çillə dönəmində havalar mülayim keçir. Qışın şaxtalı, sərt günləri sonrakı mərhələyə nisbətən az olur. Və qış öz "hökmünü" sonra – Kiçik çillə dövründə daha aydın göstərir. Qışın ikinci mərhələsi sayılan Kiçik çillə dönəmində hava, adətən, Böyük çillə ilə müqayisədə çox soyuq keçir. Elə xalq da deyir ki, əsas şaxta Böyük çillədən sonra olur, yəni Kiçik çillədə. Bu Kiçik çillə çox sərt olur. O qədər soyuq, şaxtalı keçir ki, meşədə heyvanlar, çöldə quşlar üşüyür, donur. 20 günlük Kiçik çillə nə qədər sərt olsa da, ömrü qısadır. Bu vaxt həm də günlər uzanmağa başlayır. Xalq yaddaşında bəzən iki qardaş, bəzən də iki bacı kimi təsvir edilən Böyük və Kiçik çillələr bir-birinə qarşı qoyulur. Böyük çillə nə qədər yumşaq təbiətli olaraq obrazlaşdırılırsa, Kiçik çillə onun, əksinə, öz təbiəti etibarilə sərt, ərköyün obraz kimi xarakterizə olunur. Bu baxımdan professor Azad Nəbiyevin fikirləri böyük önəm daşıyır: "...Maraqlı cəhətlərdən biri də odur ki, mərasim düşüncəsində insan özünün şərə, pisliyə münasibətinin müəyyən cəhətlərini Kiçik çillə ilə bağlı poetik düşüncəsində ifadə edir:

*Kiçik çillə...*
*Boyu bir belə...*
*Hikkəsi bir belə...*
*Gəlişi oldu*
*Hayınan.*
*Gedişi oldu*
*Vayınan.*
*Əlində qırmanc*
*Eli-günü yandırdı,*
*Neçə günahsız doqqaz bağladı,*
*Neçə alaqapı*
*Sındırdı.*
*Kəsdi neçə evin yağmasın,*
*Pendirin, çörəyin, ağmasın..."*

Nümunədən göründüyü kimi, Kiçik çillə ərəfəsində hava o qədər soyuq və şaxtalı günlərlə müşayiət olunur ki, şaxta və arasıkəsilməz bu günlər insanlara, təsərrüfata kəskin ziyan vurur. İnsanlar lap əvvəllərdən ilin bu dönəmini qışın ən sərt vaxtı kimi qarşılamışlar. Bu sərtliyin insanların yaşayış tərzinə, təsərrüfata da mənfi təsirlərini nəzərə alaraq hazırlıqlar görmüşlər. Xalq öz düşüncəsində ilin bu dövrünü – Kiçik çillə dönəmini "qışın oğlan çağı" da adlandırmışdır. Ulu əcdadlarımız Kiçik çillənin bu qədər sərt havalı olmasını maraqlı fəlsəfə ilə qarşılamışlar: evin kiçik övladı həmişə ərköyün olduğu üçün Kiçik çillə də öz ərköyünlüyünü belə göstərir.

Xalq təfəkküründə Kiçik çillənin Böyük çilləyə "həsədlə yanaşdığını" ifadə edən mifoloji mətnlərdə deyildiyi kimi, əgər Kiçik çillənin də Böyük çillə qədər ömrü olsaydı, "dünyanı öz soyuğu ilə viran edərdi". Mifoloji mətndə Kiçik çillə Böyük çilləylə "söhbətində" öz hünəri ilə belə öyünür:

Böyük çillə ilə Kiçik çillə yolda rastlaşırlar. Kiçik çillə Böyükdən soruşur:

– Getdin nə etdin?

Böyük çillə deyir:

– Təndirləri yandırdım, kürsüləri qurdurdum, küplərin, xaralların ağzını açdırdım.

Kiçik çillə deyir:

– Qoy mən gedim, gör neyləyəcəm?! Qarıları təndirdən basıb küflədən çıxaracağam, küpləri, xaralları boşaldacağam, üzüqoylu qoyub gələcəyəm.

*Böyük çillə deyir:*
*– Bacarmazsan...*
*Qabağın yazdı,*
*Ömrün azdı.*

Göründüyü kimi, insanlar Kiçik çillənin öz təbiəti ilə yaratdığı fəsadlarından narahatlıq keçirirlərsə də, ömrünün çox az olduğunu, cəmi 20 gün – fevral ayının 1-dən 21-dək hökm sürəcəyini düşünüb təsəlli tapırlar.

Onu da əlavə edək ki, qışın sərtliyi bu dönəmdə əvvəllər icra olunan mərasimlərə nisbətən kölgədə qalırdı. İstər Böyük çillə zamanı icra olunan Saya mərasimi, istərsə də Kiçik çillə dönəmində keçirilən Xıdır Nəbi mərasimi etnosun dirilən təbiətlə bağlı arzu-istəyini ifadə edirdi. Bəzi bölgələrdə bu mərasimi Kiçik çillənin axırıncı 9 və ya 10-cu günündə keçirirlər. Bir çox bölgələrdə, məsələn, Borçalıda bu mərasim birinci çillənin çıxan son gününə təsadüf edir. Naxçıvanda isə xalq arasında Xıdır Nəbi mərasimi Kiçik çillənin birinci ongünlüyündə icra olunur.

Böyük çillədə indi unudulmuş, əvvəllər isə aktiv şəkildə icra olunan Saya mərasimi keçirilib. Bu barədə folklorşünas M.Kazımoğlu maraqlı məlumatlar verərək yazır ki, saya mərasimi qoyunçuluqla birbaşa əlaqəsi olan mərasim idi. Saya mərasimi bizim indiki "Kosa-kosa" mərasiminə oxşar detallarla müşayiət olunub. Məsələn, adamlar, xüsusi oyunbazlar, məsxərəçilər çoban paltarı geyinər, əllərinə quzu dərisi alıb və qapı-qapı gəzərək xüsusi nəğmələr oxuyaraq pay yığarmışlar:

*Salamməleyk, say bəylər,*
*Bir-birindən yey bəylər.*
*Saya gəldi gördünüzmü,*
*Sayaya salam verdinizmi?*

"Sayaçı sözlər" adlı janrın adı da bu bayramın qalığıdır. "Saya" sözü çuvaşlardakı "çaya" sözü ilə səsləşir. Deməli, digər türk xalqlarında da saya bayramları keçirilib. Bu bayram folklor etnoqrafiyamızın bir parçası, folklor nümunəsi kimi günümüzdə də elmi ədəbiyyatlarda, tədqiqatlarda özünə yer almaqdadır. Bu bayram, təxminən, yanvar ayının ortalarında, qoç sürüyə daxil olan vaxtda keçirilib. Erkək qoyunları xüsusi qırmızı parçalarla bəzəyər və onu sevinclə sürüyə qatardılar və ümid edərdilər ki, həmin o saya və ya çaya adlı hami ruh insanlara kömək edəcək ki, heyvandarlıqda məhsuldarlıq bol olsun.

Bizim "Kosa-kosa" mərasimində də oyun elementləri var. Kosa da nəğmələr oxuyur və insanlardan pay istəyir. Bu payın arxasında çox böyük həqiqətlər dayanır. Yəni sayaçı mərasimləri göstərir ki, bu bayram məhsuldarlıq bayramıdır.

Bütün bunlar etnosun təqvim və bu təqvimlə bağlı yaranmış olan mərasim düşüncəsinin qədim kökləridir.

**Aytən CƏFƏROVA**
***filologiya üzrə fəlsəfə doktoru***

## Elmi-praktik konfrans



Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi və "Naxçıvan" Universitetinin təşkilatçılığı ilə "Valideyn himayəsindən məhrum olan uşaqların sosial, hüquqi və psixoloji müdafiəsi" mövzusunda konfrans keçirilib.

Konfransı giriş sözü ilə universitetin rektoru, dosent Nurlana Əliyeva açaraq valideyn himayəsindən məhrum olmuş uşaqların cəmiyyətə inteqrasiyası üçün onların hüquqi, sosial və mənəvi müdafiəsinin əhəmiyyəti barədə məlumat verib.

Konfransda nazirliyin əməkdaşları Reyhan Sadiqovanın, Rəşad Allahverdiyevin, universitetin müəllimləri Təranə Əliyevanın və Nəzakət Yusifovanın mövzu ilə bağlı çıxışları dinlənilib.

Qeyd olunub ki, respublikamızda cəmiyyətin ən həssas təbəqəsi sayılan valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara xüsusi diqqət ayrılır, onların sosial, psixoloji və hüquqi müdafiəsi sahəsində dövlət tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər həyata keçirilir. Həmin şəxslər üçün mərkəzləşmiş xüsusi yaşayış yerləri, habelə təhsil, sosial xidmət və digər müəssisələrin bazasında sosial uyğunlaşma və reabilitasiya üzrə dövlət müəssisələri yaradılıb.

Sonra suallar cabalandırılıb.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

## Hesabat yığıncaqları keçirilib

*Naxçıvan Muxtar Respublikası Atletika Federasiyasının 2020-ci ilin yekunu və 2021-ci ildə görüləcək işlərə dair hesabat yığıncağı keçirilib.*



Yığıncağı Naxçıvan Muxtar Respublikası Atletika Federasiyasının sədri Rəhman Məmmədov açaraq muxtar respublikada idmanın inkişafına göstərilən diqqət və qayğıdan, ötən müddət ərzində təməli qoyulan idman məktəbləri, mərkəzləri və ümumtəhsil ocaqlarında yaradılan idman klublarından, eləcə də idmanın müxtəlif növləri üzrə peşəkar idmançıların yetişdirilməsi, bu sahədə qazanılan nailiyyətlər, ölkə və beynəlxalq səviyyəli yarışlarda yüksək nəticələrin əldə olunmasından danışıb.

Qeyd edilib ki, ötən müddət ərzində Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində bədii gimnastika bölməsi fəaliyyətə başlayıb, hazırda Ordubad rayonunda, Naxçıvan Qızlar Liseyində, Naxçıvan Dövlət Texniki Kollecində növbəti gimnastika bölməsinin, Ordubad şəhər 1 nömrəli tam orta məktəbdə ağır atletika bölməsinin yaradılması istiqamətində iş davam etdirilir. Naxçıvan şəhərində və rayonlarda yerləşən ümumtəhsil məktəblərində 29 atletika, 2 ağır atletika idman klubu yaradılıb, klublara zəruri idman avadanlıqlarının verilməsi nəzərdə tutulmuşdur. Federasiyada yaradılmış atletika, bədii gimnastika və ağır atletika bölmələrində, ümumilikdə, 1340 atlet və gimnastla 54 məşqçi-müəllim məşğul olur.

Vurğulanıb ki, Atletika Federasiyası idmanın bu növünün inkişaf etdirilməsini daim diqqətdə saxlamalı, gələcəkdə də Gənclər və İdman Nazirliyi ilə birgə işini günün tələbləri səviyyəsində qurmalı, eyni zamanda komandaların tərkibinin gücləndirilməsi istiqamətində bütün zəruri tədbirləri həyata keçirməlidir.

Federasiyanın sədri gənclərin fiziki cəhətdən sağlam olmalarını diqqət mərkəzində saxlayan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə idmanın inkişafı üçün göstərdiyi diqqət və qayğıya görə minnətdarlığını bildirmişdir.

Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Azad Cabbarov diyarımızda həyata keçirilən idman siyasətinin uğurlarından, müasir idman infrastrukturunun yaradılması istiqamətində görülən işlərdən danışıb. Qeyd edilib ki, hazırda muxtar respublikada 35 min 105 idmançı 2213 qrupda idmanla məşğul olur.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində istifadəyə verilən müasir idman komplekslərinin sayına 2020-ci ildə daha bir idman kompleksi əlavə olunub, Uzunoba gölünün ətrafında Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının təlim-məşq kompleksi salınmış və hazırda tikintisi davam etdirilir.

Gənclər və İdman naziri bildirib ki, "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın icrası ilə əlaqədar artıq bir çox işlər görülüb, Gənclər və İdman Nazirliyi Atletika Federasiyası ilə birgə idmanın bu növünü inkişaf etdirmək və kütləviliyinin təmin edilməsi məqsədilə bir sıra tədbirlər həyata keçirilib.

Naxçıvan Muxtar Respublikası Atletika Federasiyasının sədr müavini İntiqam Rəhimov Naxçıvan Muxtar Respublikası Atletika Federasiyasının 2021-ci il 2 fevral tarixdə keçirilən iclasda qəbul edilən qərar layihəsini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Yekunda bir qrup idmançı və məşqçi-müəllim diplom və hədiyyələrlə mükafatlandırılıb.

* * *

Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatı idarə heyətinin yığıncağı keçirilib. Yığıncaqda təşkilatın sədri Mirməcid Seyidov məruzə ilə çıxış edərək ötən il görülən işlər barədə danışıb. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birlikdə müharibə iştirakçılarının qəhrəmanlıqlarla dolu döyüş yolunun təbliği və gənclərdə vətənpərvərlik tərbiyəsinin daha da gücləndirilməsi məqsədilə "Canlı tarixlər" layihəsi reallaşdırılıb, müharibə iştirakçıları ilə görüşlər keçirilib, videosüjetlər hazırlanıb.

Vurğulanıb ki, sentyabrın 27-dən başlayan Vətən müharibəsi Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ordumuzun qələbəsi ilə yekunlaşıb, düşmən işğalında olan torpaqlarımız azad edilib. Muxtar respublikamıza gənclərə aparılan işin və yaradılan şəraitin nəticəsidir ki, naxçıvanlı gənclər də Vətən müharibəsində iştirak edib, şücaət və rəşadət göstərib.

Diqqətə çatdırılıb ki, hesabat dövrü ərzində müxtəlif kateqoriyalar üzrə müharibə iştirakçıları və şəhid ailələrinin qeydiyyatının aparılması işi davam etdirilib. Vətən müharibəsində şəhid olan, xəsarət almış və müharibə veteranı adı qazanan muxtar diyarımızdan olan müharibə iştirakçıları haqda məlumatların toplanması işi aparılmaqdadır. Şəhidlərin, o cümlədən muxtar respublikamızdan olan milli qəhrəmanların xatirə günlərinin keçirilməsi təmin olunub.

**Xəbərlər şöbəsi**

***İtmişdir***

Şərur rayonu, Yengicə kənd sakini Əhmədov Ləzgi Həsən oğluna məxsus JN-98A və JN-98B inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Kərimbəyli kənd sakini Zeynalov Akif Paşa oğlunun adına verilımiş JN-364 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhər sakini İbrahimova Natəvan Bilal qızının adına olan JN-192A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 95